**AZƏRBAYCAN ŞAHMAT FEDERASİYASI**
**BƏSTƏÇİLİK KOMİSSİYASI**

**Sədr:** İlham Əliyev. **Katib:** Elmar Abdullayev.

E-mail: **bestechi@mail.ru**

**«ŞAHMAT BƏSTƏÇİLİYİ» №28, 2025**

**Redaktor:** İlham Əliyev.
**Üz qabığının dizaynı:** Azər Rəhmanoğlu və Sabir Babayev.
**Redaksiya heyəti:** Rauf Əlövsətzadə, Salman Cavadzadə,
Elmar Abdullayev, Aqşin Məsimov, Muradxan Muradov, Şaiq Quliyev.

# «BAŞLIQLAR»

## ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025
## SON NƏTİCƏ

**1. 7-ci Azərbaycan kuboku – Əsasnamə ........ 2**
**2. 7-ci Azərbaycan kuboku – Statistika ........ 3**
**3. 7-ci Azərbaycan kuboku – Mükafat və iştirakçılar ........ 4**
**4. 7-ci Azərbaycan kuboku – Hakimlər və qaliblər ........ 5**
**5. 7-ci Azərbaycan kuboku – İkigedişli ........ 6**
**6. 7-ci Azərbaycan kuboku – Üçgedişli ........ 7**
**7. 7-ci Azərbaycan kuboku – Çoxgedişli ........ 8**
**8. 7-ci Azərbaycan kuboku – Etüdlər ........ 9**
**9. 7-ci Azərbaycan kuboku – Yardımmat ........ 10**
**10. 7-ci Azərbaycan kuboku – Əks-mat ........ 11**

Jurnal 2003-cü ildən dərc olunur.

**© «ŞAHMAT BƏSTƏÇİLİYİ»** **© «İLHAM ƏLİYEV»**

# Şahmat bəstəçiliyi üzrə 7-ci Azərbaycan kuboku, 2025
# ƏSASNAMƏ

**1. Məqsəd və vəzifələr:**
- Şahmat incəsənətinin təbliği;
- Şahmat bəstəçiliyi üzrə ölkənin ən güclü şahmatçılarını müəyyən edilməsi;
- Milli komandanın seçimı;
- Bəstəçilərin yarış təcrübələrinin, ustalıq səviyyələrinin, idman dərəcələrinin artırılması.

2. Şahmat bəstəçiliyi üzrə Azərbaycan kuboku iki ildən bir keçirilir.

3. Yarışın təşkilatçıları Azərbaycan Şahmat Federasiyası (AŞF) və AŞF Şahmat Bəstəçiliyi Komissiyasıdır (AŞF ŞBK).

4. Yarışlar qiyabi olaraq 15.02.2025 – 30.06.2025-ci il tarixləri arasında keçirilir.

5. Yarışlar 6 bölmə üzrə (ikigedişli – #2, üçgedişli – #3, çoxgedişli – #N, etüdlər – +=, yardımmat - H#, əks-mat – S#) keçirilir.

6. Yarışda istənilən şahmatçı iştirak edə bilər. Hər müəllif hər bölməyə iki bəstədən artıq olmayaraq orijinal (heç yerdə dərc olunmamış) məsələ və ya etüd göndərə bilər.

7. Hər hansı bir bölmədə bəstələrin sayı üçdən az olarsa, AŞF Şahmat Bəstəçiliyi komissiyasının qərarı ilə həmin bölmə üzrə yarış ləğv edilə bilər.

8. Bəstələr hakimlərə anonim olaraq, yəni müəlliflər göstərilmədən göndəriləcək.

9. Anonimliyi qorumaq üçün yarışların hakimləri barədə əlavə məlumat veriləcək.

10. Yarışın elan tarixi – 15.02.2025.

11. Şahmat bəstələrinin yarışın direktoruna son göndəriş tarixi – 15.05.2025.

12. Nəticələrin ilkin elanı – 15.06.2025.

13. İradların son qəbul tarixi: 25.06.2025.

14. Son nəticənin elan edilməsi – 30.06.2025.

15. 7-ci Azərbaycan kubokunun direktoru: İlham Əliyev (Beynəlxalq hakim).

16. Məsələ və etüdləri aşağıda göstərilən elektron ünvana və ya WhatsApp-a Word formatda (iştirakçının adı, soyadı, təmsil etdiyi şəhəri, bəstələrdə FEN və həll göstərilməklə) göndərmək lazımdır. E-mail: **bestechi@mail.ru** Tel / whatsapp : 050 515 40 99.

17. Yarışda hakimlər yalnız 1-3-cü yerləri seçəcək. Təltifə daxil olmayan digər məsələ və etüdlər müəlliflərə qaytarılacaq və onlar həmin bəstələrdən digər yarışlarda istifadə edə bilərlər.

18. Hakimlərin və iştirakçıların siyahısı yalnız son nəticədə açıqlanacaq. İlkin nəticədə onlar anonim kimi göstərləcək.

19. İştirakçılar kubokda yer tutmayan bəstələri yalnız son nəticə elan olunduqdan sonra, başqa yarışlara göndərə bilərlər.

20. Yarışların son nəticəsi Azərbaycan Şahmat Federasiyasının **https://asf.org.az** saytında və «Şahmat bəstəçiliyi» jurnalında dərc olunacaq.

21. Hər bölmədə ilk üç yeri tutan qaliblərə diplomlar və pul mükafatları təqdim ediləcək.

# «Şahmat bəstəçiliyi üzrə 7-ci Azərbaycan kuboku, 2025»
# 7th Azerbaijan Chess Composition Cup, 2025

Azərbaycan Şahmat Federasiyası Şahmat Bəstəçiliyi komissiyasının keçirdiyi altı bölmədə (#2, #3, #N, +=, H#, S#) şahmat bəstəçiliyi üzrə 7-ci Azərbaycan kubokunun son nəticələri elan olunur.

*Öncə heç də xoş olmayan bir hadisəni qeyd etmək istərdik. 30.12.2024-cü il tarixdə Şahmat Bəstəçiliyi komissiyasına World Chess Composition Individuals (Şahmat Bəstəçiliyi üzrə Şəxsi Dünya Çempionatı) yarışının direktoru Narayan Shankar Ram (Hindistan) və tanınmış şahmat bəstəçisi Peter Şmidt-in (Avstriya) məktubu daxil oldu. Aydın oldu ki, 6-cı Azərbaycan kubokunun çoxgedişli bölməsinin qalib məsələsinin tam sələfi var.*

*31.12.2024-cü il tarixdə komissiyanın onlayn iclası keçirildi. Komissiyanın qərarı ilə (10 nəfər lehinə, bir nəfər bitərəf) bu bölmədə qalib adı ləğv edildi və verilən 80 AZN pul mükafatı geri alınaraq, 7-ci kubokun mükafat fonduna əlavə edildi. Həmçinin, "müəllif" (etika xatirinə bu dəfə ad qeyd olunmur) "Şahmat bəstəçiliyi komissiyası" tərəfindən bir il ölkə yarışlarında iştirak etmək hüququndan məhrum edildi.*

7-ci kuboka ölkəmizin 8 şəhərindən **(Bakı, Sumqayıt, Gəncə, Şirvan, Şabran, Qəbələ, Lerik, İmişli, Naftalan)** 16 şahmatçı 60 şahmat bəstəsi təqdim etdi. Tərtib yarışlarının pul mükafatları ildən-ilə artırılır. Ümid edirik ki, gələcəkdə mükafatlar və iştirakçıların sayı da artmaqda davam edəcək. Yarışların son nəticəsi "Şahmat bəstəçiliyi" jurnalının 28-ci sayında dərc olunacaq.

7-ci kubokun bəzi statistikalarını təqdim edirəm. Ən kiçik iştirakçının 11, ən böyüyün isə 89 yaşı var. İştirakçılar arasında bir qadın bəstəçi var idi. Ən çox bəstəni Araz Alməmmədov və Kənan Vəlixanov göndərdi – 11. Ən çox məsələ yardımmat bölməsində idi – 13, ən az əks-matda – 6. Ən çox iştirakçı etüd bölməsində idi – 9, ən az isə əks-matda – 3. Ən çox iştirakçı Sumqayıtdan idi – 5 nəfər.

7-ci kubok əsasən iki bəstəçimiz Kənan Vəlixanov və Araz Alməmmədovun mübarizəsi şəraitində keçdi, çünki hər iki bəstəçi kubokun bütün bölmələrində iştirak edirdi. 4 bölmədə iştirak edən Elmar Abdullayev (Şirvan) üçgedişlidə qızıl və çoxgedişlidə bürünc qazandı.

Cəmi 5 bəstəçimiz medal qazandı. Kənan Vəlixanov (İmişli) 3 qızıl, 2 gümüş, 1 bürünc olmaqla 6 medal, Araz Alməmmədov (Qəbələ) da 1 qızıl, 3 gümüş, 2 bürünc olmaqla eyni sayda medal qazandı. Bundan əlavə, İlham Əliyev (Sumqayıt) etüd bölməsində qızıl, İmran Kəlbiyev (Lerik) yardımmatda bürünc medal qazandılar. Paytaxt şahmatçıları heç bir medal qazana bilmədi.

**Bütün iştirakçılara minnətdarlığımızı bildiririk, qalibləri təbrik edirik və yeni yaradıcılıq uğurları diləyirik!**

# «7-cı Azərbaycan kubokunun mükafat fondu» 1260 AZN

| № | BÖLMƏ | 1-ci yer | 2-ci yer | 3-cü yer | ÜMUMİ |
|---|---|---|---|---|---|
| 1 | **İkigedşli (#2)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| 2 | **Üçgedişli (#3)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| 3 | **Çoxgedişli (#N)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| 4 | **Etüdlər (+=)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| 5 | **Yardımmat (H#)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| 6 | **Əks-mat (S#)** | 100 AZN | 65 AZN | 45 AZN | 210 AZN |
| | **ÜMUMİ** | 600 AZN | 390 AZN | 270 AZN | 1260 AZN |

# «7-ci Azərbaycan kubokunun iştirakçıları»

| № | SOYADI, ADI | TƏVƏL-LÜD | ŞƏHƏR | BÖLMƏLƏR | | | | | | ÜMUMİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | #2 | #3 | #N | += | H# | S# | |
| 1 | Abdullayev, Elmar | 02.11.1986 | Şirvan | 2 | 2 | 2 | - | 2 | - | 8 |
| 2 | Alməmmədov, Araz | 12.06.1971 | Qəbələ | 2 | 1 | 2 | 2 | 2 | 2 | 11 |
| 3 | Alməmmədov, Samir | 06.04.2007 | Qəbələ | 1 | - | 1 | - | 2 | - | 4 |
| 4 | Ağacanov, Eldar | 01.12.2014 | Sumqayıt | - | 1 | - | 1 | - | - | 2 |
| 5 | Bayramov Vüqar | 25.12.1971 | Sumqayıt | - | - | - | 1 | - | - | 1 |
| 6 | Cavadzadə, Salman | 11.10.1936 | Gəncə | 1 | 1 | 1 | 1 | 1 | 2 | 7 |
| 7 | Əliyev, İlham | 16.01.1967 | Sumqayıt | - | - | - | 1 | - | - | 1 |
| 8 | Kəlbiyev, İmran | 10.03.1956 | Lerik | - | - | - | - | 1 | - | 1 |
| 9 | Qasımov, Elmar | 09.08.2004 | Bakı | 2 | - | - | 2 | - | - | 4 |
| 10 | Ruzicəng, Nərminə | 02.01.1986 | Naftalan | 1 | - | - | - | - | - | 1 |
| 11 | Səfərəliyev, Ramil | 31.12.1980 | Şabran | 2 | 1 | - | - | - | - | 3 |
| 12 | Həmzəzadə, Mustafa | 18.01.2011 | Sumqayıt | - | - | 1 | 1 | - | - | 2 |
| 13 | Piriverdiyev, Anatoli | 13.10.1949 | Bakı | - | - | - | - | 2 | - | 2 |
| 14 | Vəlixanov, Kənan | 16.08.1970 | İmişli | 2 | 2 | 2 | 1 | 2 | 2 | 11 |
| 15 | İlyaslı, Ağazahir | 18.06.2000 | Sumqayıt | - | - | - | - | 1 | - | 1 |
| 16 | Məsimov, Aqşin | 01.07.1962 | Bakı | - | - | - | 1 | - | - | 1 |
| | **ÜMUMİ** | | 8 | 13 | 8 | 9 | 11 | 13 | 6 | 60 |

## «7-cı Azərbaycan kubokunun hakimləri»

| № | BÖLMƏ | HAKİM | ÖLKƏ |
|---|---|---|---|
| 1 | **İkigedişli (#2)** | Valeri Kopıl | Ukrayna |
| 2 | **Üçgedişli (#3)** | Valeri Kopıl | Ukrayna |
| 3 | **Çoxgedişli (#N)** | Valeri Kopıl | Ukrayna |
| 4 | **Etüdlər (+=)** | Bəxtiyar Rüstəmov | Azərbaycan |
| 5 | **Yardımmat (H#)** | Vitali Medintsev | Rusiya |
| 6 | **Əks-mat (S#)** | Rauf Ələvsətzadə | ABŞ |

## «7-ci Azərbaycan kubokunun qalibləri»

| Bölmə | 1-ci yer | 2-ci yer | 3-cü yer |
|---|---|---|---|
| **A – İkigedişli (#2)** | Kənan Vəlixanov (İmişli) | Kənan Vəlixanov (İmişli) | Araz Alməmmədov (Qəbələ) |
| **B – Üçgedişli (#3)** | Elmar Abdullayev (Şirvan) | Kənan Vəlixanov (İmişli) | Araz Alməmmədov (Qəbələ) |
| **C – Çoxgedişli (#N)** | Araz Alməmmədov (Qəbələ) | Araz Alməmmədov (Qəbələ) | Elmar Abdullayev (Şirvan) |
| **D – Etüdlər (+=)** | İlham Əliyev (Sumqayıt) | Kənan Vəlixanov (İmişli) | Araz Alməmmədov (Qəbələ) |
| **E – Yardımmat (H#)** | Kənan Vəlixanov (İmişli) | Araz Alməmmədov (Qəbələ) | İmran Kəlbiyev (Lerik) |
| **F – Əks-mat (S#)** | Kənan Vəlixanov (İmişli) | Araz Alməmmədov (Qəbələ) | Kənan Vəlixanov (İmişli) |

## « İLHAM ƏLİYEV-İN YOUTUBE KANALI »
## « ILHAM ALIYEV'S YOUTUBE CHANNEL »

506 videodan ibarət şahmat kanalında şahmat dərsləri, kombinasiyalar, etüdlər, məsələlərlə tanış ola və şahmat mövzulu bir çox videolar izləyə bilərsiniz. Bu mövzuda daha çox video görmək istəyirsinizsə, kanala abunə olaraq dəstək olun.

**Chessmess2013**

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
## A BÖLMƏSİ: İKİGEDİŞLİ (#2)
## Hakim: Valeri Kopıl (Ukrayna)

**№8. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



#2 12+12

**№9. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



#2 8+4

**№12.Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



#2 9+4

**№8. Kənan Vəlixanov (İmişli).**
1.♘c4? ~ 2.♖e5#, 1...fxe3 (a) 2.♕xg4#, 1...♕d6 (b) 2.♘xd6# 1...♕xd5!, 1.♘f3? ~ 2.♖e5#, 1...fxe3 (a) 2.♕xd4# (2.♕xg4?), 1...♕d6 (b) 2.♘xg5# 1...♕f6!. Həll: **1.♘xg4!** ~ 2.♖e5#, 1... fxe3 (a) 2.♕f3#, (2.♕xg4?), 1...♕d6 (b) 2.♘f6#. Zaqoruyko mövzusu. Bütün girişlər bir fiqurladır. At-vəzir dueli.

**№9. Kənan Vəlixanov (İmişli).**
1...♘xc5 a 2.♘b6/♘c3# A/B, 1...♘xe5 b 2.♘f6/♘e3# C/D, 1...♘g5 ~ 2.♖(x)d4#. 1.♗d6? (2.♘b6, ♘c3, ♘f6, ♘e3#) A/B/C/D, 1...♘xc5! A. 1.♖e4? (2.♘f6#) C (♘c3#?), 1...♔xe4 2.♘c3# B, 1...♘ ~ 2.♖(x)d4# 1...♘xe5! b. Həll: **1.♖c4!** (2.♘b6#) A (♘e3#?), 1...♔xc4 2.♘e3# D, 1...♘d4 2.♖xd4#. Meredit şəklində oyunun və ağ-qaraların gediş funksiyalarının dəyişməsi.

**№12. Araz Alməmmədov (Qəbələ).**
1.exd3? – 2.d4# 1...♗xd3 2.♖xe6# 1...♗d5!; 1.exf3? – 2.f4# 1...♗d5 2.♘xd3# 1...g5!; 1.e4? – 2.♖f5#, 1...♗d5 2.♕xd5# 1...g6!. Həll: **1.e3!** [2.♕d4#], 1...♗d5 2.♕c7#. Albino mövzusu. Matların dəyişməsi.

# HÖRMƏTLİ ŞAHMATÇILAR, ŞAHMAT BƏSTƏÇİLƏRİ VƏ HƏLLÇİLƏR!

# “ŞAHMAT BƏSTƏÇİLİYİ” jurnalı sizin haqda və sizin üçündür!

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
## B BÖLMƏSİ: ÜÇGEDİŞLİ (#3)
## Hakim: Valeri Kopıl (Ukrayna)

**№1. Elmar Abdullayev (Şirvan)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



#3 9+9

**№7. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



#3 9+5

**№8.Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



#3 14+10

**№1. Elmar Abdullayev (Şirvan).**
1.♖h2? – 2.♖xc4+ **(A)** ♔d6 3.♖d2# **(B),** 1…♔d6 2.♖d2+ **(B)** ♔c5 3.♖xc4# **(A)** 1…c3!, 1.♖h5? – 2.♖xe5+ **(C)** ♔d6 3.♘xc4# **(D),** 1…♔d6 2.♘xc4+ **(D)** ♔c5 3.♖xe5# **(C)** 1…♗g7!, 1.♖h4? – 2.♘xc4 **(D)** – 3.♗b4#, 2…e4 3.♖xh5# **(E),** 1…e4 2.♖h5 **(E)** ♔d6 3.♘xc4# **(D)** 1…♗g7!. Həll: **1.♖h1!** – 2.♖xc4+ **(A)** ♔d6 3.♖d1# **(F),** 1…♔d6 2.♖d1+ **(F)** ♔c5 3.♖xc4# **(A),** 1…e4 2.♖h5+ ♔d6 3.♘xc4#, 1…b5 2.♗b4+ ♔b6 3.♘a8#.
♖h5 gedişinə edilən cəhdlərdə AB – BA / CD – DC / DE – ED / AF – FA prinsipi üzrə növbələnmə motivləri ilə topla giriş seçimi (Uraniya). ♖h5 gedişi yanlış izlərdə birinci, ikinci və üçüncü gedişlərdə iştirak edir.

**№7. Kənan Vəlixanov (İmişli).**
**1.♗c5!** (2.♖e1+ ♔c4 3.♖c1#), 1...♘b5 **2.♖e5+** ♔c4 3.♗d5#, 1...♔c4 2.d5+ ♔xd5 **3.♖d4#**, 1...gxf4 **2.♖xf4+** ♔c4 3.d5#, 1...d2 **2.♖e3+** ♔c4 3.♖c3#.
Batareya və topun "çarpaz" oyunu. ♔c4 müdafiəsinə qarşı oyun və matların dəyişməsi.

**№8. Araz Alməmmədov (Qəbələ).**
**1.♖e2!** – 2.f8♘! [3.♘e6#], (1.♗b3? 1...♗f3!, 1.♗e6? ♗xe2!; 1♗.a5! ♘xe2?; 1.♔g7? ♘f3!). 1...♗xe2 2.♗a5! – 3.♗xc3#; 1...♗f3, ♘h3 2.♔g7! – 3.♗f6#; 1...♘xe2 2.♗e6! – 3.♖c4#; 1...♘f3 2.♗b3 – 3.♖d5#. "e2" və "f3" xanalarında iki qara daşın qarşılıqlı maneəsi, məntiqi cəhdlərlə müdafiələrdə. Bu mövzu dəfələrlə bir çox bəstəçilər tərəfindən, xüsusilə ukraynalı bəstəçilər – məsələn, V. Rudenko və M. Marandyuk tərəfindən #3 tapşırıqlarında istifadə olunub. Ancaq, ağ daşların oyununda orijinallıq mövcuddur.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
# C BÖLMƏSİ: ÇOXGEDİŞLİ (#N)
## Hakim: Valeri Kopıl (Ukrayna)

Bütün tapşırıqlar qüsurlara və sələflərə yoxlanılıb. **№9** – #6 (♔a1/♔e5). Tam sələf: L. Makaronez, Schweizerische Schachzeitung, 1996 (yacpdb 646384), o da iki fazalı.

**№8. Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



#6 6+11

**№7. Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



#6 9+9

**№2. Elmar Abdullayev (Şirvan)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



#4 10+5

**№8. Araz Alməmmədov (Qəbələ).**
**1.♘d8+!** [1.♖c2+? bxc2 2.♗e2 d4!] **1...♗xd8 2.♘e6 ♗f6 3.♖c2+!** [3.♘d4+? ♗xd4 4.♖c2+ ♗c5! 5.♗e2 d4] **3...bxc2 4.♘d4+! ♗xd4 5.♗e2** ~ **6.♗b5#**. Tematik cəhd: 1.♖c2+? bxc2 2.♗e2 [2.♗b5#], lakin 2...d4! Üç ağ daşın ardıcıl qurban verildiyi məntiqi tapşırıq.

**№7. Araz Alməmmədov (Qəbələ).**
**1.♗c1!** [2.♗xe3] **1...♘xc1 2.♔g4 ♖b4+ 3.c4 ♖xc4+ 4.♔f5! ♖c7 5.g4 ~ 6.g5#, 4...♖f4+ 5.gxf4 ~ 6.♘f7#.** Əsas plan: 1.g4? (2.g5#), lakin 1...♗d8!. Qara atın yayındırması üçün ağ filin qurban verilməsi ilə giriş. Ağ şahın manevri maraqlıdır: o, qara topu yayındırır, qara filin diaqonalını kəsir və şah yerinə qayıdır.

**№2. Elmar Abdullayev (Şirvan).**
**1.♖f3**! – 2.♖xf2 ♔xd4 3.♖d2+ ♔c3 4.♖d3#, 1…♗g1 2.♖f7 ♔xd4 3.♖d7+ ♔c3 4.♖d3#, 1…♗e1 2.♖e3 – ♗f2 3.♗e4+ ♔xd4 4.♘e6#, 2…♔xd4 3.♘e6+ ♔d5 4.♖e5#, 1…♗g3 2.♗xg3 ♔xd4 3.♘d2 ♔d5 4.♖d3#, 1…♗xd4 2.♖d3 ♔e4 3.♖e3+ ♔d5 4.♗e4#, 1…♗e3 2.♖xe3 ♔xd4 3.♘e6+ ♔d5 4.♖e5#. Seçim formasında giriş, boş xananın verilməsi ilə müşayiət olunur. Ağ topun həm ikinci, həm də mat verən gedişlərdə geri qayıtması diqqətəlayiqdir.

**« İLHAM ƏLİYEV-İN YOUTUBE KANALI / ILHAM ALIYEV'S YOUTUBE CHANNEL »**

506 videodan ibarət şahmat kanalında şahmat dərsləri, kombinasiyalar, etüdlər, məsələlərlə tanış ola və şahmat mövzulu bir çox videolar izləyə bilərsiniz. Bu mövzuda daha çox video görmək istəyirsinizsə, kanala abunə olaraq dəstək olun.

**Chessmess2013**

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
## D BÖLMƏSİ: ETÜDLƏR (+=)
## Hakim: Bəxtiyar Rüstəmov (Bakı, Azərbaycan)

**№2. İlham Əliyev (Sumqayıt)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



Heç-heçə (=) 5+6

**№7. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



Heç-heçə (=) 6+4

**№1. Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



Heç-heçə (=) 5+4

**№2. İlham Əliyev (Sumqayıt).**
**1.f6!** [1.♗f3+? ♔xf3 2.f6 (2.♖xh3+ ♔g4–+) 2...♔g2 3.fxg7 ♘e7 4.♖f1 ♘c2+ 5.♔e2 ♘d4+ 6.♔e1 h2 7.♖h1 ♘c2+ 8.♔e2 ♔xh1 9.♔f2 ♘b4–+] **1...♗xf6** [1...♗h6 2.♗f3+ ♔xf3 3.♖xh3+ ♔g4 4.♖b3=; 1...♗f8 2.♗f3+ ♔xf3 3.♖xh3+ ♔g4 4.♖c3=] **2.♗f3+! ♔xf3** [2...♔g3 3.0–0 ♗d4+ 4.♔h1 ♘e5 5.♗e2=] **3.0–0+!** [3.♖xh3+? ♔g4–+; 3.♖f1+? ♔g3 4.♖xf6 h2 5.♖f1 ♘d4–+] **3...♔g3 4.♖xf6 h2+** [4...♘e5 5.a6 ♘bd3 6.a7 və əsas oyunda olduğu kimi] **5.♔h1 ♘e5** [5...♘xa5 6.♖f5] **6.a6! ♘bd3** [6...♘g4 7.a7 və əsas oyunda olduğu kimi] **7.a7** [7.♖f1? ♘g4! 8.♖g1+ ♔h3–+] **7...♘g4 8.♖f3+!** [8.a8♕? ♘df2+ 9.♖xf2 ♘xf2#] **8...♔xf3 9.a8♕+ ♔g3 10.♕b8+** [10.♕g2+? ♔h4! 11.♕h3+ ♔g5 12.♕f3 ♘df2+] **10...♔h3 11.♕g3+!! ♔xg3** pat. Gözəl kombinasiyalı etüd. Ağlar piyada və üç daşını qurban verir, ağ şah isə qalaqurma gedişi ilə küncdə gizlənərək patla xilas olur. "h5" piyadasından başqa bütün daşlar hərəkət edir.

**№7. Kənan Vəlixanov (İmişli).**
**1.c7 c1♕ 2.c8♕** [2.♕g8+? ♔d4 3.♕h8+ (3.c8♕ ♕cxc5+ 4.♕xc5+ ♕xc5+ 5.♔a6 ♔c3-+) 3...♔c4 4.c8♕ ♖d7+ 5.♔a6 ♕cb1 6.♕h4+ ♖d4 7.♕xf5 ♕xf5 8.♕h8 ♕xc5-+] **2...♕xc5+ 3.♕xc5+ ♔xc5 4.b6 ♔b4 5.a6 ♕c5 6.♕c7! ♕d4 7.♔b8! ♖c3** [7...♔b5 8.b7 ♖c3 (8...♔xa6 9.♕c6+=) 9.♕h2! ♖c6 10.♕e2+ ♔a5 11.♕a2+=] **8.a7! ♖xc7 9.bxc7 ♕b6+ 10.♔a8!** [10.♔c8? ♕xa7–+] **10...♕xc7** [10...♕a6 11.♔b8=] pat. Qaralar maddi üstünlüyə malik olsalar da, ağlar çoxsaylı piyadalardan, vəzir (**6.♕c7**) və ağ şahın dəqiq gedişi (**7.♔b8**), həmçinin 8-ci gedişdə passiv vəzir qurbanından istifadə edərək, son nəticədə pata nail olurlar.

**№1. Araz Alməmmədov (Qəbələ).**
**1.f6! ♘xf6+** [1...c2 2.f7 ♘f6+ 3.♔xc7 ♘h7 4.b6+ ♔a6 5.b7=] **2.♔xc7 c2** [2...♘e8+ 3.♔c8! c2 4.b6+ ♔a6 5.b7 ♘d6+ 6.cxd6 c1♕ 7.b8♕ ♕xc4+=] **3.b6+ ♔a6 4.b7 c1♕ 5.b8♕ ♕f4+ 6.♔c6!** [6.♔c8? ♕f5+ 7.♔d8 ♕d7#] **6...♕e4+** [6...♕xb8 pat] **7.♔d6!** [7.♔c7? ♕e7+ 8.♔c6 ♕d7#] **7...♘e8+ 8.♔d7 ♘f6+ 9.♔d6!** [9.♔d8? ♕e8+ 10.♔c7 ♕d7#] **9...♕f4+ 10.♔c6 ♕xb8** [10...♕e4+ 11.♔d6=] pat. Məlum pat finalı ilə bitən etüdə mövqeli heç-heçə əlavə edilib, lakin pat mövqeyində "c4" piyadası təəssüratı korlayır.

# «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
# E BÖLMƏSİ: YARDIMMAT (H#)
## Hakim: Vitali Medintsev (Rusiya)

**№5. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



H#3,5 2 həll 5+12

**№9. Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



H#4 b) pc2→c3 2+8

**№1. İmran Kəlbiyev (Lerik)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



H#3 b) ♕e3→g4 3+6

**№5. Kənan Vəlixanov (İmişli).**
1...♘g3+ **A** 2.♔xe5 ♘xe2+ 3.♔e4 ♗d6 4.♘d5 ♘g3# **B**, 1...♗g3 **B** 2.♘g4 ♗xe1 3.♖h2 ♗d3+ 4.♔f4 ♗g3# **A**. Bu məsələnin əsas ideyası olan Kojakin mövzusu, g3 xanasında tematik fiqurların geri qayıtması ilə mürəkkəbləşdirilməsidir. Birinci həll variantında tematik effektlərin reallaşması Klasinc mövzusu ilə birgə, qarşılıqlı neytrallaşma ilə müşayiət olunur. İkinci həll variantında isə ağlar tematik filin iki gedişlik manevri ilə digər filini azad edir, bu zaman qaralar isə ağ fillər üçün xətləri açır: bir halda uzaq bloklama (♘g4), digər halda isə gizlənmə (♖h2) həyata keçirilir. Düşünürəm ki, tematik fiqurlardan biri kimi atın seçilməsi nəticəsində həll variantlarındakı oyun tamamilə vahid alınmayıb (müqayisə üçün bax: www.yacpdb.org/#612646), lakin ideyanın mürəkkəbliyi və orijinallığı bu çatışmazlığı tam kompensasiya edir. Həmçinin məsələnin həllinin çətinliyini də qeyd etmək lazımdır. Düzgün matlar isə xoş bir bonusdur.

**№9. Araz Alməmmədov (Qəbələ).**
a) 1.♔c3 ♖h1 2.♔b2 ♖h8 3.♔c1 ♖xa8 4.♘b2 ♖a1#**,** b) 1.d1♖ ♔xf7 2.♖d3 ♔xe7 3.♖e8+ ♔d6 4.♖ee3 ♖xa4#. Ustalıq və hazırcavablığın yaxşı bir vəhdət nümunəsidir. Ağ topa dair bucaqlı sahələr üzrə hərəkət kvadratı – çoxdan məlum və dəfələrlə həyata keçirilmiş bir ideyadır, o cümlədən təmiz formada, vuruşlarsız (məsələn, bax: https://pdb.dieschwalbe.de/P0503592, https://pdb.dieschwalbe.de/P1007242, https://pdb.dieschwalbe.de/P1087145). İkinci həll bu ideyaya həllərin həm açıq, həm də gizli əlaqəsini gətirir. Açıq əlaqəyə Çumakov prinsipi üzrə ♗♘/ ♗♖ funksiyalarının dəyişməsi aiddir (fəal bloklama / passiv vuruş). Gizli əlaqəyə isə şahların oyunu daxildir: birinci həll variantında qara şah üç dəfə oynayır, ağ şah isə yerində qalır; ikinci variantda isə əksinə – üç dəfə ağ şah oynayır, qara şah isə ilkin mövqedə mat olur. Oyma (qravyura – bu arada, "b7"-dəki qara piyada artıqdır. Redaksiya: diaqramda düzəliş edilib). Düzgün matlar xoş təsir bağışlayır.

**№1. İmran Kəlbiyev (Lerik).**
a) 1.a1♗ ♘b5 2.♗d4 ♖xf5+ 3.♔e4 ♘d6#, b) 1.c1♗ ♖f3 2.♗g5 ♖e3+ 3.♔f4 ♘d5#. Bütün mərhələləri birləşdirən maraqlı bir effekt var – tematik xətlər üçün çevrilmiş filə ağ fiqurlar tərəfindən xətlərin açılması. Bu, düzgün buqələmun (kəltə) əks-səda matları və filə çevrilməni (sonra həmin filin qara şahın

yanındakı xananı bloklaması ilə) tamamlayır. Xüsusilə, ikinci həll variantında bu effekt daha maraqlı görünür, çünki final mövqedə ağ top yenidən tematik xətdəki xanaya qayıdır, qara şah isə, öz növbəsində, ağ top üçün ilkin mövqeni tutur. Məncə, bu, həllin tapılmasını daha çətin edir. Bu baxımdan, əkizlərin yerlərini dəyişmək məqsədəuyğun ola bilər. Cazibədar oymadır – qravyura (daha sadələşdirilmiş bir versiyası da mümkündür: 8/8/8/4kp2/5R2/2Npq3/p1p5/7K. Redaksiya: hakimin təklif etdiyi versiya dərc olunub). Bu versiyanı müqayisə etmək də maraqlıdır – **www.yacpdb.org/#420268**.

## «ŞAHMAT BƏSTƏÇİLİYİ ÜZRƏ 7-ci AZƏRBAYCAN KUBOKU, 2025»
## F BÖLMƏSİ: ƏKS-MAT (S#)
## Hakim: Rauf Əlövsətzadə (ABŞ)

Nəticələr:
**№1** – S#3 (♔a3/♚a5). Belə vacib yarış üçün zəif tapşırıqdır.
**№2** – S#4 (♔d1/♚g4). Həlli yoxdur.
**№5** – S#7 (♔f5/♚h5). Çox sayda əlavə həllər: 1.♔f4, 1.♘e6, 1.♖e7 və s.

**№4. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
1-ci yer



S#7 11+9

**№6. Araz Alməmmədov (Qəbələ)**
7-ci Azərbaycan kuboku, 2025
2-ci yer



S#3 12+6

**№3. Kənan Vəlixanov (İmişli)**
7-ci Azərbaycan kuboku, 2025
3-cü yer



S#6 10+6

**№4. Kənan Vəlixanov (İmişli).**
1.♕a7+ c5 2.bxc6 e.p.+ ♔f3 3.0-0+ ♔g3 4.♖f3+! ♔xf3 5.c7+ ♔g3 6.♖xh7 bxc1♗ 7.♕e3+ ♗xe3#, 6…bxc1♘ 7.♘e2+ ♘xe2# Valladao taskı. Fərqli matla nəticələnən iki piyada çevrilməsi.

**№6. Araz Alməmmədov (Qəbələ).**
1.♗h6! zz, 1...♕xg1 2.♕f2+! ♕xf2 3.♗xe6+ fxe6#, 1...♕h2 2.♖3g5+! fxg5 3.♕e5+! ♕xe5#, 1...♕xh3 2.♖f3+! ♕xf3+ 3.♕e4+! ♕xe4#. Üç xoş variant.

**№3. Kənan Vəlixanov (İmişli).**
**1.♘b4!** zz, 1...f3 2.♕g4+ ♔e3 3.♕xf3+ ♔d2 4.♕e3 + ♔d1 5.e6! ♗~ 6.♕d2+ ♔xd2#, 1...e6 2.♕h7+ ♔xe5 3.♖h5+ ♔f6 4.dxe6! ♔xe6 5.♘d5 f3 6.♕f5+ ♗xf5#. Altı gedişlik tapşırıqda təkrarsız iki dəqiq variant.